# “Sevgimin yurdu”na “Mən qayıdıram...”

## *Bu kitabların azərbaycanlı müəllifinin əsərləri mindən artıq dildə nəşr olunub*




**Bakının Park Bulvar Ticarət Mərkəzində “Əli və Nino” kitab mağazasında Rusiyada yaşayan məşhur yazıçı soydaşımız Eldar Əhədovun dünya şöhrətli yazarların Azərbaycana səyahətlərindən bəhs edən “Mən qayıdıram...” kitabının təqdimatı keçirildi.**

Azərbaycan oxucularının o qədər də yaxşı tanımadığı Eldar Əhədov Rusiya Yazıçılar İttifaqı, "XXI əsrin yazıçıları" İttifaqı, Azərbaycan Yazıçılar Birliyi kimi yaradıcılıq qurumlarının üzvüdür. Uzun illərdir ki, Rusiyanın Krasnoyarsk diyarında yaşayır. Yazıçının 2 kitabı ABŞ-də, bir çox əsərləri isə Rusiya, Bolqarıstan, İsrail, Almaniya, Ukrayna, Qazaxıstan, Belarus, Meksika, Serbiya, Hindistan, Misir və eləcə də Vətəni Azərbaycanda nəşr edilib.

Soydaşımız rus, Azərbaycan, ingilis, ispan, italyan və serb dillərində 76 şeir və nəsr kitabının müəllifidir. 2012-ci ildə beşcildlik seçilmiş əsərləri işıq üzü görüb. “Sənə dua edirəm” əsəri dünyanın mindən çox dilinə, o cümlədən ərəb, yunan, ingilis, ispan, çin dillərinə tərcümə olunub. Bakıda təqdimatı keçirilən “Mən qayıdıram...” kitabı onun Azərbaycanla bağlı “Sevgimin yurdu”, “Xarıbülbül. Azərbaycan dastanı”ndan sonra növbəti populyar əseridir.

Azərbaycan əsilli yazıçı bir ay əvvəl Dünya Yazıçılar Təşkilatının keçirdiyi konqresdə dünya ədəbiyyatına verdiyi şəxsi töhfələrinə görə gümüş medalla təltif edilib. Dünya şöhrətli britaniyalı şair Riçard Berenqarten Kembric Universitetində keçirilən mərasimdə Eldar Əhədovu “Rus dilində yazan görkəmli Azərbaycan şairi”, “Neizvestnaya Sibir” jurnalı isə illər əvvəl onu Rusiyanın ən istedadlı yazıçılarından biri adlandırıb. 2019-cu ildə yaradıcılığı “Başqa dildə




əsərlər yaradaraq milli kimliyi qoruyub saxladığına görə” Avrasiya gümüş medalına layiq görülüb.

Xatırladaq ki, Bakıda doğulmuş Eldar Əhədov Sankt-Peterburq Dağ-Mədən Universitetinin məzunudur. Ali təhsilini başa vurduqdan sonra 40 il Uzaq Şimalda, Orta və Şərqi Sibirdə çalışıb. Tədqiqat işlərini insan ayağı dəyməyən məkanlarda – Qütbarxası sahələrdən monqol çöllərinə qədər, Yamaldan Tuvayadək tayqanın və tundranın əlçatmaz yerlərində həyata keçirib. Uzaq Şimalda 2 çay onun adını daşıyır.

Eldar Əhədovun yaradıcılığının pərəstişkarları sırasında Nobel Sülh Mükafatı laureatı Bəxtiyar Siracov, Azərbaycanın xalq yazıçıları Çingiz Abdullayev və Natiq Rəsulzadə kimi tanınmış soydaşlarımız, doğma Bakının bir çox yüksək zövqlü oxucuları var.

Azərbaycan əsilli yazıçı Eldar Əhədovun “Əli və Nino”da oxucularla görüşü böyük ruh yüksəkliyi ilə keçdi. Yazıçı görüşünə gələnlərin suallarını cavablandırdı, yaradıcılıq uğurlarından və növbəti layihələrindən danışdı.

*Namiq QƏDİMOĞLU*
*XQ*

Xalq qəzeti .- 2024.- 10 may, № 96.- S.12.